

***

**(Bütün şəhid övladlarına...)**

Günəşin
hər səhər doğduğu yaşdayam,
mən uşaq deyiləm, ata,
uşaq deyiləm!

Buludların
göz yaşını boğduğu yaşdayam,
əlindən saldığın
qucaq da deyiləm, ata,
qucaq da deyiləm!

Gülüşlərin
qanımızı sağdığı yaşdayam,
kölgəsinə vurulan
yalquzaq da deyiləm, ata,
yalquzaq da deyiləm!..

Mən
Tanrının sonuncu nəfəsiyəm,
yazdığı
intihar məktubundan öncə...
Mən həbsdən qaçmış
Ay işığıyam, ata-
tutulacağam bu gecə...

**Tural Turan**

**Səhifəni hazırladı: Emil Rasimoğlu**

Türküstan.- 2020.- 25-30 avqust.- S.22.